Azərbaycan.- 2020.-30 dekabr. S. 1; 5.

# Dövlət vətəndaşlarının sosial müdafiəsini daim diqqətdə saxlayır

Ölkəmizdə aparılan islahatların iqtisadi inkişafla yanaşı, əhalinin sosial müdafiəsinə yönəldilməsi də davam edir. Dövlətin sosial sahəyə diqqəti sayəsində vaxtaşırı pensiya, təqaüd, müavinət və əməkhaqları artırılır, şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsini təmin etmək üçün mütəmadi tədbirlər görülür.

COVID-19-un dünyanın hər yerində hökm sürdüyü bu dövrdə də Azərbaycan dövləti öz vətəndaşının yanındadır. Erməni faşizminə qalib gələn ölkəmiz koronavirus adlanan düşmənlə də ciddi mübarizədədir. Həyata keçirilən tədbirlərdən biri Nazirlər Kabinetinin respublika ərazisində koronavirus pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında qərarının qəbul edilməsidir. Xatırladaq ki, 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək tətbiq olunan məhdudiyyətlərin iqtisadi fəallığa təsiri nəzərə alınaraq əvvəlki sərtləşdirilmiş karantin rejimi zamanı müəyyən edilmiş ehtiyacı olan təqribən 600 min nəfərə 190 manat birdəfəlik maddi yardım göstəriləcək. Sözügedən qərarda qeyd edilir ki, koronavirus pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydasına əsasən, 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə müvafiq qaydalara uyğun olaraq təkrar yoxlama keçirildikdən sonra 190 manat ödəniləcək. Onu da qeyd edək ki, ödəmələr artıq həyata keçirilir.

Dövlət başçısının sərəncamları əsasında həyata keçirilən sosial islahatların başlıca məqsədlərindən biri də əhalinin pensiya təminatının yaxşılaşdırılmasıdır. Bu il həmin dövlət sənədlərinin qəbulu sayəsində ölkədə minimum pensiyanın 72 faiz artması nəticəsində 660 min nəfərin pensiyasında ciddi artım oldu. Bununla həmçinin pensiyanın alıcılıq qabiliyyəti parametri üzrə ölkəmiz MDB məkanında birinci yerdə qərarlaşdı. Əlavə olaraq xüsusi şərtlərlə pensiya alan 90 min nəfərin pensiyaları orta hesabla 31 faiz artdı. Bu da ölkə üzrə ötənilki paketin ümumilikdə 750 min insanı əhatə etməsi deməkdir.

*Ardı 5-ci səh.*

# Dövlət vətəndaşlarının sosial müdafiəsini daim diqqətdə saxlayır

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində 2020-ci ildə bir sıra zəruri tədbirlər görülüb. Belə ki, Prezidentin imzaladığı sərəncamla bütün pensiyalar 16,6 faiz indeksləşdirildi. Bunun nəticəsində ölkə üzrə bütün pensiyaların orta aylıq səviyyəsi 300 manata yüksəldi. Yaşa görə pensiyalarda isə bu səviyyə 350 manata çatdı.

Dövlət əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən islahatlar zamanı lazım olan məbləğdə vəsait ayırır. Məsələn, son islahatların maliyyə dəyəri 560 milyon manata bərabərdir. Təkcə 2020-ci ildə indeksləşdirmə hesabına pensiyaçılara əlavə olaraq 550 milyon manat vəsait ödənildi. Ümumilikdə cəmi bir il ərzində qəbul edilən qərarların icrası üçün pensiyaçılara 1 milyard manatdan artıq vəsait verilib.

Pensiya almayan, lakin sosial müdafiəyə ehtiyacı olan ailələr də unudulmayıb. Yəni əhalinin sosial müdafiəsi gücləndirilərkən bu kateqoriyadan olan insanların ehtiyacları da nəzərə alınıb. Prezident dövlətin bu sahəyə xüsusi diqqət yetirdiyini bildirərək demişdir: “Ünvanlı sosial yardımla bağlı göstəriş vermişdim ki, onun əhatə dairəsi genişləndirilsin. Son müddət ərzində iqtisadi sahədə canlanma var, iqtisadi artım təmin edilir, o cümlədən sənaye istehsalında, - qeyri-neft sektorunda sənaye istehsalı təqribən 15 faizə yaxın artıbdır, - yeni iş yerləri yaradılır, vətəndaşlar üçün yeni imkanlar açılır. Ancaq buna baxmayaraq, mən göstəriş vermişdim ki, hələ də dövlət dəstəyinə ehtiyacı olan vətəndaşların dövlət təminatı təmin edilsin və bu vətəndaşların sayı artırılsın”.

2019-cu ilin sonunda ünvanlı sosial yardım mexanizminə cəlb edilən insanların sayı 72 min nəfər olub. Halbuki həmin ilin əvvəlində bu rəqəm 40 min idi. Yəni bir il ərzində 50-70 faizlik artım qeydə alınıb. 2020-ci ildə isə bu istiqamətdə dövlət büdcəsindən ayrılan vəsait hesabına 85-90 min ailənin ünvanlı sosial yardımla əhatə olunması planlaşdırılmışdı ki, bu da proqramla əhatə olunanların sayının 20 faiz artması deməkdir. Həmin kateqoriyadan olan insanların həyat şəraitini yaxşılaşdırmaq üçün görülən tədbirlər mütəmadi xarakter daşıyır.

Əhalinin sosial müdafiəsinin ən səmərəli forması məşğulluğun təmin edilməsidir. Bu səbəbdən aparılan islahatların bir istiqaməti də əhalinin özünüməşğulluq proqramına cəlb olunmasıdır. Əgər 2017-ci ildə bu proqrama 1500 ailə cəlb edilmişdisə, 2018-ci ildə o, 7 min, 2019-cu ildə 10 min ailəni əhatə edib. 2020-ci ildə isə daha 11 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi planlaşdırılmışdı və bu iş uğurla davam etdirilir.

Dövlətimiz ölkə iqtisadiyyatını böhrandan qorumaq üçün 2020-ci ildə qəti addımlar atdı. Prezident İlham Əliyev pandemiyanın iqtisadi və sosial fəsadlarını minimuma endirmək məqsədilə Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayırdı. Bununla yanaşı, dövlət başçısının qərarı ilə dörd qrup yaradıldı. Həmin işçi qrupların əsas vəzifəsi məşğulluq məsələlərini təhlil edib dövlət başçısına məlumat verməkdir. Bu fakt onu göstərir ki, həmişə olduğu kimi, dövlətin siyasətində Azərbaycan vətəndaşının mənafeyi öndə durur. Eyni zamanda bu qurumların işi iqtisadi sabitliyi qorumaq, iqtisadi inkişafı təmin etmək, makroiqtisadi sabitliyi və maliyyə vəziyyətini təhlil edərək tədbirlər görülməsi üçün hökumətə təkliflər verməkdir.

Azərbaycan iqtisadiyyatı liberal əsaslar üzərində qurulub. Buna görə də qeyri-neft sektorunda məhsul istehsalının 80 faizindən çoxu sahibkarlar tərəfindən istehsal olunur. Dövlət daim sahibkarlığın inkişafına qayğı göstərir. Bu çətin anda da dövlət sahibkarlara arxa çıxır, onlara hər bir maddi və mənəvi kömək göstərir.

Prezident İlham Əliyev dövlət tərəfindən sahibkarlara lazım olan dəstəyin göstərilməsinin vacib olduğunu bildirərək demişdir: “Biz ilk növbədə koronavirusdan ən çox əziyyət çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərini diqqət mərkəzinə aldıq. Biz ilk növbədə bu sahibkarlıq subyektlərində işləyən insanların maliyyə vəziyyətini nəzərə almalıyıq... Bir çox sahələr və 40 mindən çox sahibkarlıq subyekti indi demək olar ki, fəaliyyət göstərmir, yaxud da məhdud çərçivədə fəaliyyət göstərir. Dövlət onlara kömək göstərməlidir. Ona görə göstəriş verilmişdir ki, həmin bu sahibkarlıq subyektlərində muzdla işləyən insanların sosial təminatı, eyni zamanda fərdi sahibkarların fəaliyyəti nəzərə alınsın. Onların da sayı təqribən 300 minə yaxındır”.

Dövlət iqtisadi inkişafın qorunması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ayrılan vəsaitin həcmini 1,5 milyard manat artıraraq 2,5 milyard manata çatdırıb. Prezident tərəfindən həmin vəsaitin artırılması böhrandan daha az itki ilə çıxmağa, iqtisadi inkişafı və sahibkarlığı qorumağa, əhalinin sosial müdafiəsini daha da gücləndirməyə imkan yaradır.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***